**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

**ƏMR**

**5 fevral 2026-cı il** **10-1/3-1-26/2026**

# Peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatların təqdim edilməməsinə və Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə

"Capital Audit" MMC-in auditoru Əliyev Razi Təhməz oğlu tərəfindən "Avandsis Enerji" MMC və "Safenerji" MMC-də aparılmış auditlərin nəticəsi barədə Auditorlar Palatasının Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədov və Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və dövlət orqanları ilə iş idarəsinin rəisi E.İbrahimov tərəfindən təqdim edilmiş 2026-cı il 03 fevral tarixli xidməti məktuba (əlavə olunur) əsasən Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnaməyə uyğun olaraq "Capital Audit" məhdud məsuliyyətli cəmiyyətinin auditoru Əliyev Razi Təhməz oğlu barəsində intizam və tənbeh tədbirləri görülməsi məqsədilə **əmr edirəm:**

1. Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin "5-ci "Xəbərdarlıq tənbehi" maddəsinin 8-ci "Palatanın rəhbərliyi, müvafiq struktur bölmələri, Palata Şurası yanında komitə və komissiyalar tərəfindən peşə mənsublarından/üzvlərindən peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatların təqdim edilməməsi", 11-ci "Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsi və keyfiyyətsiz auditor xidməti göstərilməsi" bəndlərinə və 7-ci "Peşə fəaliyyətindən müvəqqəti kənarlaşdırma tənbehi" maddəsinin 1-ci "Bir il ərzində töhmət tələb edən hər hansı vəziyyətin və ya hərəkətin təkrarlanması" bəndinə əsasən "Capital Audit" məhdud məsuliyyətli cəmiyyətinin auditoru Əliyev Razi Təhməz oğlu peşə (auditor) fəaliyyətindən 6 (altı) ay müddətinə kənarlaşdırılsın.
2. Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu əmrdən irəli gələn məsələləri həll etsin.
3. Audit sistemində icra intizamına nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu əmrin mətninin qeyd edilən auditora göndərilməsini təmin etsin.
4. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/mm1RsmK9wfAtXR91KxYh4Es0qqtxTpuPAYNVtH8nUqA%3D

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/mm1RsmK9wfAtXR91KxYh4Es0qqtxTpuPAYNVtH8nUqA%3D